# Folklor Azərbaycan poeziyasının mənbəyi kimi

**Nuridə Muxtarzadə**
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Dillər Universiteti*
**E-mail:** nurideibay@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., akad.M.K. İmanov,
filol.ü.e.d., prof.N.Ş. Şəmsizadə

**Açar sözlər:** poeziya, folklor, ədəbi-bədii nümunələr, söz, nitq, xalq
**Ключевые слова:** поэзия, фольклор, литературные и художественные примеры, слова, речь, народ
**Key words:** poetry, folklore, literary and artistic examples, word, speech, people

XI yüzillikdə türk alimi Kaşğarlı Mahmudun "Divanu lüğət-it-türk" əsərində əsərində öz əksini tapan ("Köç", "Ergenekon", "Şu", "Qayıdış") dastan janrı XVI-XVIII yüzilliklərdə Qurbani, Tufarqanlı Abbas, Sarı Aşıq, Xəstə Qasım kimi qüdrətli sənətkarların əsərlərində ("Aşıq Qərib-Şahsənəm", "Əsli-Kərəm", "Abbas-Gülgəz", "Şah İsmayıl-Gülzar", "Tahir-Zöhrə", "Alıxan-Pəri", "Arzu-Qəmbər") geniş vüsət aldı. "Dastani-Əhməd Hərami", "Gülşəni-raz" (Şeyx Mahmud Şəbüstərinin (1287-1320) poeması, "Yusif və Züleyxa" (Suli Fəqih və Mustafa Zərir), "Vərqa və Gülşa" (Yusif Məddah) kimi əsərlər epik poeziyamızın sonrakı inkişafında böyük rol oynamışdır.

Təsadüfi deyil ki, folklor bədii-poetik mövzu və ideya baxımından – Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin, İmadəddin Nəsiminin, Qazi Bürhanəddinin, Şah İsmayıl Xətainin, Məhəmməd Əmaninin, Saib Təbrizinin, Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin, Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Məhəmməd Hadinin, Abbas Səhhətin, Hüseyn Cavidin, Səməd Vurğunun, Osman Sarıvəllinin, Mikayıl Müşfiqin, Rəsul Rzanın ...yaradıcılığında aparıcı yer tutur.

Folklor simvolikasının böyük bir növü təbiət rəmzləridir. "Azərbaycan folkloru ilə yazılı ədəbiyyat arasındakı sıx əlaqə və qarşılıqlı təsir əsrlər boyu davam etmişdir. Ədib və şairlər şifahi ədəbiyyatın mövzularından, şəkil, vəzn və ifadə vasitələrindən istifadə edərək, gözəl hekayə, mənzumə və qoşmalar yazmışlar" (1., 12).

Xalq həyatının, milli adət və ənənələrini, ibrətamiz səhnələrinin etnoqrafık detallarının bütün təfərrüatı ilə ədəbiyyatın xüsusilə də poeziyanın əsas mövzuları kimi müəyyənləşdirmək, keçən əsrin 60-cı illərinin poeziyasında geniş şəkildə vüsət tapırdı. Rəsul Rzanın, Hüseyn Arifın, Nəbi Xəzrinin, Bəxtiyar Vahabzadənin şeirlərində özünü göstərir.

Əsrin ortalarından sonrakı mərhələdə poeziyanın bu meylini öz yaradıcılığında əks etdirən şairlər barədə düşünəndə isə biz, heç şübhəsiz, ilk növbədə R.Rzanın adını qeyd etməliyik. Məhz R.Rza birinci olaraq cəmiyyətin həyatında, düşüncəsində, əhval-ruhiyyəsində başlanan yeniləşməni əks etdirməyə başladı. Şair bir çox poetik nümunələrində, məsələn, "Yaz gəlir", "Divar daşı", "Novruzgülü", "Nərgiz" və s. bu kimi şeirlərində adi, sadə, ilk baxışda mühüm olmayan həyat təzahürlərindən, predmet və hadisələrdən yazırdı.

“Lirik qəhrəman qışın nə tez sovuşub getdiyini düşünür. İndi artıq yazdır və otağa yazın ilıq, sərin havası dolur. R.Rza bu şeri 1954-cü ildə yazmışdır. Çoxlarına o vaxt bu yazın tamam başqa bir yaz olduğu məlum deyildi. İlk çağlarda o, həqiqət olsa da, ancaq bu yaz daha

çox əfsanəyə bənzəyirdi; bir xəyal idi, ancaq həqiqətdən nişan, soraq verirdi" (2,15). Məsələn, "Yaz gəlir" şerində şair – pəncərəni açdım; gördüm ki, bayırda günəş gülür.

Pəncərəmi açmışam,
Günəş gəzir otaqda.
Küsmüş bir qonaq kimi
xəbərsiz getdi şaxta.
Bir qonaq ki,
söhbəti çox uzundu;
qəm gətirirdi səsi.
Bir qonaq ki,
iliklərə sızırdı
acı, soyuq nəfəsi.
Pəncərəmi açmışam.
Çöldən evə yaz gəlir.
Yaz yox,
yazın qoxusu.
Hələ yerin canından
çıxmamışdır soyuqların qorxusu.
Pəncərəmdən gələn yaz
yazılmamış bir nəğmənin
ilk xalları kimidir,
Bir körpənin xəyalları kimidir.
Həqiqətdir, əfsanəyə bənzəyir,
Bir xəyaldır, həqiqəti bəzəyir.
Hələ zərif çiçək kimi
özü küləkdə əsən ılıq,
yeni nəfəsdir.
Olsun, olsun, nə zərər.
Qışı yola salana,
baharı duymaq üçün
inanın, bu da bəsdir.
Havadan birəm-birəm
enir qar.
İnsanlar!
Ay insanlar!
Könlümüzdədir bahar.

Əgər poeziya aləmindəki səy və təşəbbüsləri nəticəsində şair bu və ya digər yeni və müvəffəqiyyətli forma tətbiqinə çalışırsa, burada bariz formalizm axtarmamağı, bunun əvəzinə onun istədiyi yeni bədii ifadə formalarının nə dərəcədə şairin qayəsinə uyğun olduğunu, onun fikir və hisslərinin nə dərəcədə düzgün və kamil poetik şəkildə təcəssüm etdiyini araşdırmalıyıq. Bizcə, bu nöqteyi-nəzərdən Rəsul Rzanın şeirə gətirdiyi yenilik onun öz poetik təbiətindən doğan və onun öz sənətinə həm məna, həm də forma cəhətindən gözəllik verən bir yenilikdir (3, 1). "Gül səsləri" şeirinə diqqət yetirək:

Masamın üstündə
büllur vaz.
Vazda güllər.
Ağgül,
qırmızı gül,
bir də sarı gül.
Elə bil, aşıq mahnısıdır.
Gözlərimi yumuram.
Saz səsi gəlir qulaqlarıma.
Ağ gül,
qırmızı gül,
bir də sarı gül.
Bu rənglərin
qarışıq naxışı,
otağımı baharlayan
ətirlər
könül dolusu qalaydı;
yaxşı-yaxşı.
Qalaydı belə,
solmayaydı barı, gül;
ağ gül,
qırmizı gül,
bir də sarı gül.

Nəticədə onu demək olar ki, Azərbaycan poeziyası folklor nümunələri ilə zəngindir. Obrazlılığın təkamülündə folklor mövzusundan, motiv və süjetlərindən yaradıcı şəkildə istifadə edilməsini doğuran xarakterik məqamlar üzərində təhlil, poeziyada bu istiqamətdə öz təzahürünü nişan verən faktların üzə çıxarılması ənənə üzərində qərarlaşan novatorluq faktı kimi dəyərləndirilməsi belə bir zərurətdən irəli gəlir. Təbiət obrazlarından duman, çinar, palıd, vələs kimi anlayışlardan istifadə yolu ilə xalqın tarixi taleyinin mübarizələrlə zəngin səhifələrini canlandırmaq ənənəsinin davam və inkişafını təsbit edən məqamları nəzərə çatdırmaq, onların şərti-simvolik mahiyyətini, rəmzi məna çalarlarını üzə çıxarmaq əsas məqsəd və elmi vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir.

**Məqalənin aktuallığı.** Folklor – Azərbaycan şifahi xalq ədəbiyyatının illərlə formalaşan mənəvi yaddaşın ədəbi təkamülüdür. Bu zəngin irs yazılı ədəbi-bədii nümunələrə əvəzi olmayan bir mənbə kimi böyük təsir göstərmişdir. Folklor janrlarından nağıl və dastanlar atalar sözləri və zərbi-məsəllər tarix boyu ədəbiyyatda görünməkdədir.

**Məqalənin elmi yeniliyi.** Azərbaycan ədəbiyyatı daima folklora, mövzu-ideya baxımından və onun obrazlar aləminin xüsusiyyətlərinə maraq göstərərək sənətkarlıq baxımından bir örnək kimi faydalanmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorantların, bakalavr və magistrantların elmi axtarışlarının qaynaqlarına çevrilə bilər.

## Ədəbiyyat

1. Heyət C. "Azərbaycan şifahi xalq ədəbiyyatı". İzah və qeydlərin müəllifi: filologiya

elmləri namizədi Təhmasib Fərzəliyev, Bakı, “Azərbaycan Dövlət Nəşriyyatı”, 1990
2. Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2005
3. Vaqif Yusifli. “Bir daha "Rənglər" silsiləsi haqqında”. “Ədəbiyyat qəzeti”, 16 aprel 2010

**Н. Мухтарзаде**

## Фольклор - как источник азербайджанской поэзии

## Резюме

Фольклор - это литературная эволюция духовной памяти, образованная годами устной народной литературы Азербайджана. Это богатое наследие оказало большое влияние на литературные и художественные источники, а также на источник, который не имеет ценности. Р. Рза впервые начал отражать обновление, которое началось в жизни, мысли и духе общества.

**N. Muhtarzade**

## Folklore - as a source of Azerbaijani poetry

## Summary

Folklore is a literary evolution of the spiritual memory formed by years of oral folk literature of Azerbaijan. This rich heritage has had a great influence on literary and artistic sources as well as a source that has no value. R. Rza first began to reflect the renewal that began in the life, thought, and spirit of society.

**Redaksiyaya daxil olub:** 08.05.2018